


# BAYAT

№ 52 (633)







*İsmayıl İmanzadə*


## *Axı nə işim var mənim şəhərdə*

Sanmayın bir elin tünd adamıyam,
Tanrının xoş sözə bənd adamıyam.
Köhnə əkinçiyəm-kənd adamıyam -
Axı, nə işim var mənim şəhərdə?!

Uzaqdan baxanda gur ocaqlara,
Bildim, çarə yoxmuş "olacaqlara".
Bələd deyiləmsə künc-bucaqlara -
Axı, nə işim var mənim şəhərdə?!

Çox gördüm turşumuş boz sifətləri,
Susdurmaq çətinmiş hürən itləri...
Neynirəm yalançı məhəbbətləri-
Axı, nə işim var mənim şəhərdə?!

Burda ürcah oldum üzü bozlara,
Qoşula bilmədim ağlı azlara.
Müftəcə yem oldum dələduzlara -
Axı, nə işim var mənim şəhərdə?!

Ocağım, küllüyüm, daxmam deyil ki,
Halal duz-çörəyim-loxmam deyil ki...
Qohumum, qardaşım-doğmam deyil ki -
Axı, nə işim var mənim şəhərdə?!

Cavanı yarımcan, ahılı halsız,
Arısı didərgin, pətəyi balsız.
Mürgülü daşları sorğu-sualsız-
Axı, nə işim var mənim şəhərdə?!

Kəndin ay-ulduzlu gecəsi-gecə,
Nurlu sabahları güc qatır gücə.
Döşümə yatmırsa burda yol, küçə -
Axı nə işim var mənim şəhərdə?!

Doğma el-obamdır zərim-qızılım,
Özgə kölgəsinə necə qısılım?!
Qəfəsə sığışmır enim-uzunum-
Axı, nə işim var mənim şəhərdə?!

## *Adam*

Yükünü niyə daşıyaq,
Çıx get, qoy rahat yaşıyaq.
Tərsi-avandı baş-ayaq-
Sahmanı pozulan adam.

Çat düşən deyil nəfsinə,
Bilən yoxdur çarəsi nə...
İtin-qurdun kölgəsinə -
Sığınıb qısılan adam.

Halallığa, saflığa yad,
Qəddi-qaməti yeddi qat.
Təbi qısır, ağlı kasad -
Artdıqca azalan adam.

Çatmasa oxu hədəfə,
Dönür pırtlaşıq kələfə.
Ölüb dirilir yüz dəfə -
Yaxadan yapışan adam.

## *Sənə nə deyim*

Məni sevdiyin gündən,
Ötüb keçməzdin gendən.
Bəs, niyə üzün məndən -
Döndü-sənə nə deyim?

Eşq imiş yaraşığım,
Açılmır qırışığım.
Çıxıb getdin... işığım -
Söndü-sənə nə deyim?

Qəlb nə daş, nə dəmirdi,
Bəxt heç belə demirdi...
Eh... bu da bir ömürdü -
Gündü-sənə nə deyim?

Dərd bulanıq sudursa,
Aşıb-daşar qudursa...
Əhdin-vəfan budursa -
İndi sənə nə deyim?

## *Çinar*

*Bir vaxtlar bizim Cəbrayıl şəhərində yaşı yüzilliklərlə ölçülən bir çinar var idi. Bilmirəm, indi durexcess?*

Hələ dərd içində keçir hər günüm,
Hələ ərşə qalxır harayım-ünüm.
Söylə, sən necəsən, başına dönüm -
Nəmli gözlərimin didəsi çinar.

Yağı əllərində qalıbdı yaxan,
Kəhriz gözlərindən yaşdımı axan?
Dağların qoynundan boylanıb baxan -
Həsrətin, qubarın mətəsi çinar.

Qəribəm, heç yana çatmayır əlim,
Adını çəkəndə sızlayır dilim.
Bir gün nəfəsimi kəsəcək ölüm -
Çatmasa vüsalın vədəsi, çinar.

Sənsiz İsmayılın durulmaz qanı,
Hanı Diridağım, Tumasım - hanı?
Ay ulu bir elin sultanı, xanı -
Yadlara yenilməz-dədəsi çinar.

## *Gedirəm*

Bitməyib cəngim-savaşım,
Sədləri qırıb gedirəm.
Cığırları əldən salıb,
Yolları yorub gedirəm.

Ötən hər anım lal haray,
Həyat eşqim ən şirin pay.
Neçə könüldə gah saray,
Gah evcik qurub gedirəm.

Tanıdım ötən hər anı,
Xərcləməmişəm ad-sanı.
Boz sifətli bu dünyanı
Dişimə vurub gedirəm.

Qara deməsəm də ağa,
Dərdimlə dönmüşəm dağa.
Bəhanəm yoxdur qalmağa -
Səbr edin, durub gedirəm...

## *Yadıma düşürsən*

Sevgisiz tükənir güc də, dözüm də,
Sənsən elə əzəl-axır sözüm də.
Xəyalın canlanır hərdən gözümdə -
Nədənsə yadıma yar düşən kimi.

Tablaşmaq çətindir dərdin gücünə,
Bir qatı zülmətmi çöküb içinə?
De niyə qoşuldun durna köçünə,
Payızda dağlara qar düşən kimi?

Arxanca uzalı qalıbdır əlim,
Adın çəkiləndə sızlayır dilim.
Arabir yadıma düşürsən, gülüm -
"Xəstənin könlünə nar düşən kimi".

## *Tənhalığım*

İçimdən yellər əsir,
Saçımda qar işığı.
Kölgə salıb üzümə
Alnımın qırışığı.

Ötən anlar buz kimi,
Gözlərimdə donub yaş.
Ayağıma ilişir
Üstümə atılan daş.

Ürəyimdə can verən
Kəlmələr yığın-yığın.
Yaxam əlində qalıb
Nə vaxtdır tənhalığın...

## *Mərdimazar adam*

*Adını demirəm, eldən ayıbdı...*

Hər yanda
suyu bulandırmaqdır
peşəsi-işi,
Hələ bilən yoxdur ki,
bu arvadağızlı
erkəkdir, yoxsa dişi...
Bir az parazitə bənzəri var,
Bir az da
gözlə görünməyən
virus kimidir,
Özgə hesabına hər yanı
gəzib-dolaşan
arsız bir turist kimidir.
El-oba tənəsirlə
sağalası deyil azarı.
Çoxları bilir ki,
kimlərdi qudurdan,
Bu mərdimazar oğlu
mərdimazarı...

## *Dağlar*

Özgə bir aləmdir yalın-yamacın,
Zirvəndə ağaran qar-bəyaz saçın.
Bulaqlar zümzümən, buludlar tacın,
Güneyin-quzeyin meşədi, dağlar.

Sıldırım qayalar üzündə yaşmaq,
Çətindir hər gizli sirrini açmaq.
Çəmənlər çeşnidi, sal daşlar başmaq,
Cığırlar arğacdı-köşədi, dağlar.

Aşırdın üstündən ötən hər günü,
Qoymadın yaxına gələ bürkünü.
Yel atdı çiynindən duman kürkünü,
Deyəsən güllərin üşüdü, dağlar...